**Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanına və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 6, maddə 485; 2006, 11, maddə 948; 2008, 11, maddə 969; 2009, 4, maddə 226, 10, maddə 785; 2010, 2, maddə 80; 2012, 12, maddə 1242; 2013, 5, maddə 494, 12, maddə 1538; 2014, 2, maddə 112, 6, maddə 644, 9, maddə 1027; 2016, 2 (II kitab), maddə 251, 8, maddə 1384) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. I hissənin 2-ci bəndinin on birinci abzasında "MTN - Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi" sözləri "DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə, on altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on yeddinci abzas əlavə edilsin:

"XKX - Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti.".

2. II hissənin 1-ci – 5-ci bəndlərində, III hissənin 8-ci – 10-cu bəndlərində, IV hissənin 12-ci – 17-ci, 21-ci – 25-ci, 29-cu, 30-cu bəndlərində, V hissənin 32-ci – 39-cu bəndlərində "MTN," akronimi "DTX, XKX," akronimləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 may 2017-ci il
1371